DOI: https://doi.org/10.36719/2663-4619/85/98-102

**Gülçöhrə Kamal qızı Hüseynzadə**
Azərbaycan Respublikası Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
gulu.huseyn23@gmail.com

# BEYNƏLXALQ HÜQUQİ MƏSULİYYƏTİN ANLAYIŞI HAQQINDA

**Xülasə**

Hüquq məsuliyyətinə dair müddəalar qanunların və digər normativ aktların sanksiyalarda ifadə olunur. Bu termin şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçirilməsinə görə üzərinə götürdüyü öhdəlik kimi başa düşülür. Hüquqi məsuliyyət anlayışı hüququn zəruriliyinə və labüdlüyünə inam, yüksək səviyyəli qanunvericilik texnikası, qanunvericiliyin təkmil halı, hüquq tətbiq etmə bacarığı və s. kimi tərkib hissələrdən ibarətdir. Beynəlxalq-hüquqi məsuliyyət anlayışı beynəlxalq hüquqda və dövlətlərarası münasibətlərdə xüsusilə əhəmiyyət kəsb edən bir institutdur. Hüquq qaydasının pozulması məsuliyyətə səbəb olur, eynilə bu beynəlxalq hüquq üçün də keçərlidir. Belə ki, beynəlxalq hüquqda hər bir dövlət öz ərazisində başqa bir dövlətin və ya onun vətəndaşlarının hüququnun pozulması üçün də məsuliyyət daşıyır. Beynəlxalq hüquqda məsuliyyət dedikdə, beynəlxalq hüquqi pozğunluq və ya beynəlxalq cinayət əməli nəticəsində müəyyən dövlətin və ya beynəlxalq hüququn digər subyektinin üzərinə düşən maddi, mənəvi və siyasi hüquqi nəticələrin məcmusu başa düşülür. Sözügedən məqalə beynəlxalq hüquqi məsuliyyətin anlayışını müxtəlif aspektlərdən tədqiq edir.

***Açar sözlər:*** *məsuliyyət, təqsir, pozuntu, konvensiya, hüquqi sanksiyalar, beynəlxalq cinayət*

**Gulchohra Kamal Huseynzade**
Academy of Public Administration under the
President of the Republic of Azerbaijan
master student
gulu.huseyn23@gmail.com

## About the concept of international legal responsibility

**Abstract**

Provisions on legal responsibility are expressed in sanctions of laws and other normative acts. This term is understood as the obligation assumed by a person for the implementation of the duties imposed on him/her now and in the future. The concept of legal responsibility is a belief in the necessity and inevitability of law, high-level legislative technique, advanced state of legislation, ability to apply law, etc. consists of components such as. The concept of international legal responsibility is an institution of particular importance in international law and interstate relations. Thus, in international law, every state is also responsible for the violation of the rights of another state or its citizens in its territory. Responsibility in international law means the set of material, moral and political legal consequences that fall on a certain state or other subject of international law as a result of an international legal violation or an international criminal act. The mentioned article explores the concept of international legal responsibility from different aspects.

***Keywords:*** *liability, guilt, violation, convention, legal sanctions, international crime*

## Giriş

Əvvəla hüquqi məsuliyyət anlayışına açıqlıq gətirmək lazımdır. Belə ki, hüquq elmində və qanunvericilikdə hüquqi məsuliyyət ifadəsi geniş mənaya malikdir. Hüquqi məsuliyyət dedikdə, hüququn tələblərini icra etməyə görə dövlətin məcburiyyət tətbiq etməsi başa düşülür, yəni şəxsin hüquq normasını pozması hüquqi məsuliyyətə səbəb olur. Bu anlayışa pozitiv və neqativ yanaşma vardır. Pozitiv hüquqi məsuliyyət şəxsin vətəndaşlıq borcu ilə bağlı olan faydalı davranışlardan ibarətdir. Məsələn, seçkili vəzifəli şəxslərin onları həmin vəzifəyə seçən cəmiyyət qarşısında məuliyyəti. Neqativ hüquqi məsuliyyət isə hüquqpozma ilə bağlı yaranan, onun məhkəmə və hüquq mühafizə orqanları şəxsində dövlət qarşısında törətdiyi hüquqa zidd əmələ görə barəsində tətbiq edilən tədbirlərdir.

Ümumilikdə, hüquqi məsuliyyət aşağıdakı 4 əsas kateqoriyaya ayrılır:

1) cinayət məsuliyyəti – adından da bəlli olduğu kimi, cinayət hüquq münasibətləri çərçivəsində həyata keçirilən, cinayət törədən şəxs barəsində tətbiq edilən dövlətin məcburetmə tədbirləridir, lakin digərlərindən öz ağırlığı ilə fərqlənir. Cinayət məsuliyyəti şəxsin cinayət törətdiyi andan etibarən yaranır, ibtidai istintaq mərhələsində faktiki olaraq reallaşdırılmağa başlayır və məhkəmə timsalında dövlət tərəfindən şəxs barəsində onun törətdiyi cinayətin xüsusiyyətləri və ağırlıq dərəcəsinə müvafiq surətdə cəza təyin edilməsi ilə sona çatır. AR CM-nin 14-cü maddəsinin 1-ci bəndinə əsasən cinayət ictimai təhlükəli sayılan və şəxs tərəfindən təqsirli şəkildə törədilən əməldir, hansı ki, törədilməsi müqabilində müvafiq orqan tərəfindən şəxsə cəza təyin edilir (1);

2) mülki məsuliyyət – şəxsin əmlak xarakterli məsuliyyətidir. Mülki-hüquqi məsuliyyət subyektin pozulmuş əmlak və şəxsi qeyri-əmlak hüquqlarının bərpasına yönəlsə də, bu, cinayət məsuliyyətində olduğu dərəcədə imperativ xarakter daşımır. Mülki hüquqda törədilən hüquq pozuntusu delikt adlanır və AR Mülki Məcəlləsinin 1096.2-ci maddəsinə görə sözügedən əməli törədən şəxs mülki məsuliyyət daşıyır (2);

3) inzibati məsuliyyət – bu anlayışa AR İXM-nin 12.1-ci maddəsinə müvafiq olaraq inzibati xəta elə hüquq pozuntusudur ki, həmin məcəllədə nəzərdə tutulan ictimai münasibətlərə qəsd edir və məsuliyyətə səbəb olur (3). Qeyd edim ki, törədilən hüquq pozuntusunun inzibati məsuliyyətə səbəb olmasının yeganə şərti sözügedən əməlin cinayət məsuliyyətinə səbəb olmamasıdır;

4) intizam məsuliyyəti – yuxarıda sadalanan digər 3 məsuliyyət növündən özünün yüngül dərəcəliliyi ilə fərqlənən intizam məsuliyyəti müəssisə, birlik və s. kimi məhdud ərazi daxilində tətbiq edilən, həmin ərazinin normal fəaliyyəti üçün təsbit edilmiş intizam qaydalarının pozulmasına gətirib çıxaran, şəxs barəsində verilən töhmət, məzəmmət və s. kimi sanksiyalarla həyata keçirilən məsuliyyət növüdür. Məsələn, AR ƏM-nin 186-cı maddəsinin birinci bəndinə görə əgər işçi öz əmək vəzifələrini lazımi qaydada yerinə yetirməzsə və ya vəzifə səlahiyyətlərindən sui-istifadə edərsə, intizam məsuliyyətinə cəlb edilə bilərlər (4).

Beynəlxalq hüquqi məsuliyyət anlayışı isə daha fərqlidir. Belə ki, bu anlayış özündə ilk növbədə beynəlxalq hüquq pozuntusu nəticəsində beynəlxalq hüquq subyektinin digər beynəlxalq hüquq subyektinə vurduğu zərəri aradan qaldırmaq və yaxud vurduğu zərərin əvəzini ödəmək vəzifəsini ehtiva edir. Beynəlxalq-hüquqi məsuliyyət dedikdə, bir beynəlxaq hüquq subyekti tərəfindən digər beynəlxalq hüquq subyektinə vurulmuş ziyanın aradan qaldırılması, eyni zamanda zərərvuran tərəfin hesabına zərərçəkmiş tərəfin pozulmuş hüquqlarının bərpa edilməsi hüququnun nəzərdə tutulduğu beynəlxalq hüququn xüsusi institutu nəzərdə tutulur (2009:22).

Qeyd edim ki, beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq hüquqda problemli institut olmaqla, bu anlayışa dair bir çox hüquqşünas alim, məsələn, Q.İ.Tunkin, N.A.Uşakov, J.Salmon və s. araşdırmalar aparmışlar. Bu anlayışa dair tez-tez işlədilən bir ifadədə Şarl De Visser beynəlxalq-hüquqi məsuliyyəti dövlətlərin bərabərliyinin zəruri nəticəsi kimi təsvir etmişdir. Lakin sözügedən anlayışı sonradan daha da genişləndirmiş və qeyd etmişdir ki, beynəlxalq hüquq qaydasında bu, hüququn özünün zəruri nəticəsidir və əgər kimsə dövlətin beynəlxalq-hüquqi məsuliyyəti ideyasını guya suverenlik ideyası ilə ziddiyyət təşkil etdiyinə görə inkar etməyə cəhd edərsə, beynəlxalq hüquqi nizamın mövcudluğu inkar olunmuş deməkdir (The Law of International Responsibility, 4). Yəni, məsuliyyət yoxdursa, qanun da yoxdur.

Beynəlxalq-hüquqi məsuliyyətin əsas məqsədlərinə aiddir:

1. Hüquq pozan subyektin hüquqazidd əməlinin dəyandırılması;
2. Hüquq pozan subyektin öz öhdəliklərini yerinə yetirməsinə məcbur etmə;
3. Zərərçəkmişə vurulmuş maddi və mənəvi zərərə görə kompensasiya;
4. Gələcəkdə baş verə biləcək hüquq pozuntularının qarşısının alınması üçün əlavə tədbirlərin görülməsi.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında Azərbaycan Respublikasının Qanununun 17-ci maddəsinə görə müvafiq dövlət orqanları və müəssisələr Azərbaycan Respublikasının bağladığı beynəlxalq müqavilələrə müvafiq şəkildə tənzimlənən, eyni zamanda, sözügedən orqanların səlahiyyət dairəsinə aid olan məsələlərə dair dövlətin öz üzərinə götürdüyü öhdəliklərin həyata keçirilməsini təmin edirlər (7).

Beynəlxalq-hüquqi məsuliyyətin funksiyaları isə hüquq münasibətləri çərçivəsində həyata keçirilən tədbirlər məcmusudur. Beynəlxalq-hüquqi məsuliyyətin funksiyalarına aşağıdakılar aiddir

1. Hüquqbərpaedici – reparasion – adi hüquq pozuntuları zamanı tətbiq edilir. Reparasion funksiya başlıca olaraq vurulmuş maddi zərərin əvəzinin ödənilməsi və ya mənəvi ziyanın aradan qaldırılmasına yönəlmişdir.

2. Cəzalandırıcı – repressiv − əsas formaları cəza, cərimə və s.-dir. Bu funksiya baş verə biləcək yeni hüquq pozuntularının qarşısının alınması məqsədi daşıyır.

Onu da qeyd edim ki, hüquq məsuliyyətində olduğu kimi, beynəlxalq-hüquqi məsuliyyət cinayət, mülki, inzibati və intizam məsuliyyəti kimi təsnif olunmamışdır. Belə ki, Dövlətlərin beynəlxalq hüquqazidd əməllərinə görə məsuliyyəti haqqında maddələr Layihəsinin 17-ci maddəsinə görə mənşəyindən asılı olmadan dövlətin beynəlxalq öhdəliyini pozaraq törədilən əməl beynəlxalq hüquqazidd əməldir (2000: 362).

Beynəlxalq məsuliyyət, demək olar ki, məhkəmə presedentləri və adət normalarından ibarətdir. Eyni zamanda, sözügedən sahədə tətbiq olunan əsas qanunvericilik aktlarında beynəlxalq öhdəliklərin pozulmasına görə yarana biləcək neqativ hüquqi nəticələr təsbit olunmamışdır. Buna baxmayaraq, beynəlxalq hüquq pozuntusu törədən subyektlərin beynəlxalq-hüquqi məsuliyyətini ehtiva edən bir sıra mühüm sənədlər də vardır. Buna misal olaraq 1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasını və s. göstərə bilərik.

Həmçinin bildirirəm ki, beynəlxalq hüquqda vurulmuş zərərin əvəzinin ödənilməsi konkret beynəlxalq müqavilə ilə nəzərdə tutularsa, bu zaman mütləq məsuliyyət meydana gəlir, yəni, beynəlxalq-hüquqi məsuliyyətin əsas normativ-hüquqi əsası beynəlxalq aktdır. Dövlətlərin beynəlxalq-hüquqazidd əməllərinə görə məsuliyyəti haqqında maddələr Layihəsinin 4-cü maddəsinə əsasən dövlətlərin əməli dövlətdaxili hüquqda hüquqazidd əməl sayılmasa belə, beynəlxalq hüquqda beynəlxalq hüquqazidd əməl hesab oluna bilər (2000:367). Bu hal eynilə “Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında” AR Konstitusiya Qanununun I maddəsində də təsbit edilmişdir. Belə ki, sözügedən maddədə qeyd edilir ki, beynəlxalq hüquqa görə cinayət sayılan əmələ dair Konstitusiyanın hər hansı müddəası şəxsin məsuliyyətə cəlb edilməsinə və barəsində cəza tətbiq edilməsinə mane olan bilməz (9).

Beynəlxalq-hüquqi məsuliyyət maddi və qeyri-maddi məsuliyyət olmaqla 2 növə ayrılır və onlar da aşağıdakı formalarda ola bilərlər:

Restitusiya – bu forma hüquq pozuntusu törədilməsindən daha əvvəl mövcud olmuş vəziyyətin bərpa edilməsidir.

Kompensasiya – beynəlxalq hüquq subyektinə vurulan maddi ziyanın əvəzinin pul olaraq ödənilməsidir.

Satisfaksiya – konpensasiyadan fərqli olaraq, beynəlxalq hüquq subyektinə vurulan zərərin mənəvi ödənilməsi nəzərdə tutulur. Buna misal olaraq zərər vuran dövlətin üzr istəməsini, törətdiyi hüquq pozuntusunu etiraf etməsini və s. deyə bilərik (Hüseynov, 2000:296).

Təkrar etməmə təminatları – beynəlxalq-hüquqi məsuliyyət institutunda ən mühüm anlayışlardan biridir, belə ki, dövlət törətdiyi hüquq pozuntularını sonradan törətməyəcəyinə dair üzərinə öhdəlik götürür.

Beynəlxalq-hüquqi məsuliyyətin məzmununu təyin edən əlamətlərə aşağıdakılar aiddir:

1. Hüquq qaydasını pozan dövlətə və ya digər subyektə beynəlxalq-hüquqi sanksiyalar tətbiq olunur;
2. Beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq hüquq pozuntusu törədildikdə baş verir;
3. Beynəlxalq-hüquqi məsuliyyət beynəlxalq hüquq qaydasının təmin olunmasına yönəlmişdir;
4. Hüquq qaydasını pozan dövlət üçün müəyyən mənfi nəticələr təsbit olunmuşdur.

Beynəlxalq məsuliyyətin yeganə faktiki əsası beynəlxalq hüquq pozuntusudur. Beynəlxalq hüquq pozuntusunun subyektiv və obyektiv olmaqla iki ünsürü mövcuddur. Subyektiv ünsürə görə beynəlxalq hüquq pozuntusu dövlətin özünə aiddir, obyektiv ünsürə görə isə beynəlxalq hüquq pozuntusu dövlətin beynəlxalq öhdəliyini pozan hüquqazidd əməldir.

İndi isə beynəlxalq cinayət anlayışından danışmaq lazımdır. Belə ki, dövlət tabeliyindəki orqanlarının, həmçinin vətəndaşlarının törətdikləri cinayət əməllərinə görə məsuliyyət daşıyır. Eyni zamanda, dövlət ərazisi daxilində başqa bir dövlətin və dövlətin vətəndaşlarının hüquqlarının pozulması üçün məsuliyyət daşıyır (Ural, 2013:97).

Beynəlxalq cinayət beynəlxalq hüquqa zidd olan ictimai təhlükəli əməldir və hüquqi hadisə kimi bir neçə mühüm əlamətlərə malikdir:

a) pozulmuş öhdəliklərin xarakteri;

b) pozulmuş öhdəliklərin ictimai təhlükəliliyi;

c) törədilən hüquqa zidd əməlin beynəlxalq cinayət hesab edilməsi.

Beynəlxalq cinayət anlayışı Soyqırım cinayətinin önlənməsi və ona görə cəza haqqında 1948-ci il tarixli Konvensiya, Aparteid cinayətinin önlənməsi və ona görə cəza haqqında 1973-cü il tarixli Konvensiya, Nüvə fəlakətinin önlənməsi haqqında 1981-ci il tarixli Bəyannamə və s.kimi zəruri beynəlxalq aktlarda təsbit olunmuşdur.

Bir sıra beynəlxalq sazişlərdə qeyd olunan hallarda dövlətin üzərinə, onun törətdiyi əməl nəticəsində başqa dövlətə vurduğu zərəri ödəmək vəzifəsi qoyula bilər, baxmayaraq ki, sözügedən əməl beynəlxalq hüquqa zidd deyil. Beynəlxalq müqavilələrdə belə məsuliyyət ağır təhlükəli xüsusi fəaliyyət növləri ilə əlaqədar nəzərdə tutulur. Məsələn, Kosmik obyektlərin vurduğu zərərə görə beynəlxalq məsuliyyət haqqında 1972-ci il tarixli Konvensiyanın 11-ci maddəsinə görə kosmik obyekti göndərən dövlət, əgər sözügedən obyektlə hər hansı hava gəmisinə zərər vurularsa, vurulan ziyanın əvəzində kompensasiya ödəməyə məcburdur.

Müəyyən müddət sonra beynəlxalq hüquqda məsuliyyət anlayışının, yalnız əmlaka və şəxsiyyətə vurulan ziyan hallarına görə, məhdud şəkildə məcəlləşdirilməsinə başlanılmışdır (Əsgərov, 1979:430).

## Nəticə

Qeyd edirəm ki, dövlətlər beynəlxalq-hüquqi məsuliyyətinin əsas məqsədi kimi hüquq pozuntularının tam və qismən qarşısının alınması və beynəlxalq hüquqpozuntusunun nəticələrinin ləğvini nəzərdə tuturlar və bu sırada bir çox mühüm beynəlxalq əhəmiyyətli addımlar atılır.

Nəticə olaraq, beynəlxalq-hüquqi məsuliyyətin həyata keçirilməsi təyinatı dövlətlər tərəfindən dövlətdaxili qanunvericiliyə və beynəlxalq hüquq normalarına riayət olunmasında görünür.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi − Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (e-qanun.az).
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi − Azərbaycan Respublikasının Mülki Məcəlləsi (e-qanun.az).
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. https://e-qanun.az/framework/46960
4. Azərbaycan Respublikasının Əmək Məcəlləsi − Azərbaycan Respublikasının Əmək Məcəlləsi (e-qanun.az).
5. Beynəlxalq münasibətlər lüğəti. (2009). Bakı.
6. The Law of International Responsibility. Oxford University Press.
7. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/9460
8. Beynəlxalq hüquq ümumi hissə. (2000). Bakı: Azərbaycan Universiteti"nəşriyyatı.
9. Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. https://e-qanun.az/framework/18017
10. Beynəlxalq hüquq. (2000). Bakı.
11. Ural, S.S. (2013). İndividual application for the protection of Rights and Freedoms.
12. Əsgərov, Ə.İ. (1979). Beynəlxalq hüquq. Bakı.

**Rəyçi: h.ü.f.d. Reyhan Cəfərova**

Göndərildi: 16.10.2022 Qəbul edildi: 19.11.2022